# AZƏRBAYCAN ŞEİRİNDƏ EKOLOJİ İCTİMAİ ŞÜUR VƏ TƏBİƏTƏ MÜNASİBƏT

**Fidan Abdurəhmanova**

*AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Bakı*
*fidan_abdurahmanova@mail.ru*

Ekoloji şüur ekoloji qanunların mahiyyətini dərk etməyi, təbiətdəki ziddiyyətlərin, münaqişələrin səbəblərini anlayışla qarşılamağı əhatə edir. Təbii və sosial qanunlar arasında uyğunsuzluq, qlobal ekoloji fəlakət və yerli ekoloji böhranların təhlükəsi barədə məlumatlılıq ətraf mühitin imperativinə uyğun olan məqsədəuyğun fəaliyyət metodunun əxlaqi seçimini dərk etmək, özünü təbiətin bir hissəsi kimi bilməkdir.

Meydana gəldiyi ən qədim çağlardan Yaxın Şərqdə, o cümlədən Azərbaycanda ədəbiyyat poeziya ilə təmsil olunub. Həyati müşahidədən doğulan fikir şeirin qəlb aləmindən keçərək onun psixoloji ovqatını əks etdirir. Şeir dünyanın dərki, təbiətin poetik ifadəsidir. İnsan təbiətin ən yüksək dəyər verdiyi varlıq olsa da, keçici və müvəqqətidir. İnsan psixologiyası təbiət kimi həqiqi və şəffafdır. Təbiət əsrlərlə insan bəsləyib yola salıb – təbiətə! İnsanlar bir-biri üçün yaradılsa da, təbiətin insan üçün faydalılığı bitməz-tükənməzdir. Dünyanın bütün yaradıcı insanları təbiəti əks etdirməyə çalışıb, poeziya isə onu vəsf edib. Təsadüfi deyil ki, insan ilk təbiətə vurğun olur, ecazkar rənglərinə qarışır. İnsan təbiətlə daima qarşılıqlı əmək fəaliyyətindədir.

Taleyini qayalara bağlayan, "deyirəm kaş: bax beləcə daşa dönəm yavaş-yavaş" deyərək daşa söykənən M.Arazın poeziyasında təbiət həm şeirin predmeti, həm də onun poetik fərdiyyəti kimi çıxış edir:

Azərbaycan – qayalarda
bitən bir çiçək,
Azərbaycan – çiçəklərin içində qaya.

Bütün fəsillərin ecazkarlığını misralarına həkk edən – payızda otaqda yaza bilməyən, qışda qarın soyuqluğunu şəffaflığına bağışlayan Musa Yaqub:

Otaqda yazmıram bu şeirimi mən,
Yapışıb payızın titrək əlindən
Qızıl bədənini sıxıb köksümə,
Lap belə təpədən dırnağa kimi
Payıza bürünüb yazdım şeirimi. "Bu payız"

Yaxud,

Ulduz tək üstümə səpələn, ey qar,
Geydirdin əynimə ağappaq donu.
Sənin ki, bu qədər təmizliyin var,
Bağışlamaq olar soyuqluğunu.
Ulduz tək üstümə səpələn, ey qar.
Belə təmizlikdən isinmək olar. "Qar"

Təbiət manipulyasiya obyekti kimi insan ruhunu dəyişməkdə mükəmməl ustadır. Təbiət kimi insan xarakterində də psixoloji şəffaflıq vardır.

Təbiət ilə özündə daxili böyüklük, fikir və arzu prosesini təcəssüm etdirən insan arasındakı bütövlüyün vəhdətini ifadə etmək bu poeziyanın predmetini şərtləndirir. Zəhmət belə bütövlüyü təmin edən, əlaqə yaradan vasitə kimi poetikləşir. Bu vəhdətin daxilindəki ziddiyyət isə arzu olunanı dərk etməyə yönəlmiş təfəkkür prosesinin mahiyyəti kimi meydana çıxır Ələkbər Salahzadənin poeziyasında:

Ot çalınır,
otçalanlar bir orkestr;
bir havanı tutub gedir.
Yüz çiçəyin harayını
Bir vıyıltı udub gedir. "Otçalanlar"

Şairə görə əllər təbiətin icra etdiyi dünya – insan hesablamasında bərabərlik işarəsidir. Bu bərabərlik işarəsindən sonra isə zəhmət gəlir. Deməli, bu toplamanın cəmi zəhmətdən ibarətdir:

Əllərimiz, qollarımız –
Dağlar, düzlər arasında
Bərabərlik işarəsi.
Qollarımız
Köksümüzdən fışqırdıqca
bu qol şəlaləsi. "Monoloq"

Azərbaycan poeziyası əsrlərlə müxtəlif istiqamətlərdə dövrün siyasi-ictimai proseslərinə münasibət bildirərək, təbiəti sevməyi və onun nizamını qorumağa biganə qalmamışdır. Elmi texniki tərəqqi, fabrik və zavodların inkişafı nəticəsində dəniz sularının çirklənməsi, meşələrdə ağacların kəsilib odun kimi istifadə

edilməsi yaradıcı insanların müşahidəsindən kənarda qalmamışdır. "Gəlin təbiəti biz də düşünək, O özü hər şeyi düşünən kimi" deyərək, təbiətin qayğısına qalan Hüseyn Arifin bu mövzuda şeirlərinə rast gəlmək mümkündür:

Çapıb budaqlarını
Qabığını soyma sən.
Çox yemisən barını,
O ağaca qıyma sən. "Ağac yenə ağacdır"

Beləliklə, təbiət insanlarla qarşılıqlı əlaqənin tamhüquqlu subyekti kimi qəbul edilir. Qaydalar insanlar arasında qarşılıqlı münasibətlərə və təbiət ilə qarşılıqlı əlaqəyə tətbiq edilir. Təbiət və insanın inkişafı birgə təkamül prosesi, qarşılıqlı faydalı vəhdətdir.

Təbiəti mühafizə etmək üçün yalnız qorumaq zərurəti diktə olunur. Ekoloji şüur dünya haqqında biliklər və təsəvvürlər sistemidir ki, insan və təbiət arasında bərabərliyi qoruyur.